# Abadlıq işləri vüsət alır

**Yardımlıya çatmağımızla güclü yağışın yağması bir oldu. Bakının qaynar istisindən sonra sanki ayrı bir dünyaya düşdük. Bir tərəfdən ürək oxşayan sərin hava, digər tərəfdən təbiətin əsrarəngiz gözəlliyi, yaşıllıq, bir-birinə boy verən dağlar. Bizi fərəhləndirən həm də o oldu ki, son vaxtlar bölgədə quruculuq işləri yeni vüsət alıb. Rayon icra hakimiyyətinin başçısı Xəzər Aslanovun rəhbərliyi ilə bununla bağlı bir sıra mühüm layihələr gerçəkləşdirilir. Təbii ki, bu mədəniyyətdən də yan ötmür.**



**Yardımlı Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Ayaz Əliyev söhbət zamanı bunu dönə-dönə vurğuladı:**

- Şöbəmiz özündə MKS, 57 kənd kitabxanasını, tarix-diyarşünaslıq muzeyini, şəhər və kənd mədəniyyət evlərini, Heydər Əliyev muzeyini, 26 şəhər və kənd klubunu, kino-teatrı və uşaq musiqi məktəbini birləşdirir.

Son illər maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində müəyyən işlər görülüb. Belə ki, 2009-2010-cu illərdə daxili imkanlar hesabına 5 kənd klubu və 4 kitabxana təmir edilmişdir. Rayon kinoteatrı haqqında da eyni sözləri söyləməliyik. Hazırda biz ondan mədəniyyət mərkəzi kimi istifadə edir, burada müxtəlif toplantılar keçiririk.

Turizmin inkişafı diqqət mərkəzindədir. Bölgədə üç turizm obyekti - "Deman", "Şəlalə" və "Otel" fəaliyyət göstərir. Keçən il rayona 1500 turist gəlmişdi. Hesablamalar göstərir ki, 2010-cu ildə bu rəqəm təxminən 2 dəfə çox olacaqdır. Belə ki, bu ilin ilk 6 ayında artıq bu göstərici 1200 nəfərə çatıb.

Asudə vaxtın təşkili məqsədilə rəngarəng tədbirlər planlaşdırırıq. Bu sıraya bayram, festival və müsabiqələrin, maraqlı sənət adamları ilə görüşlərin keçirilməsi də daxildir.

Rayonumuz dağlıq zonada yerləşdiyindən sərt iqlimlə qarşılaşır. Bu isə öz növbəsində yolların tez xarab olmasına gətirib çıxarır. Nəticədə Yardımlıya gələn turistlər kimi yerli əhali də nə qədər marağında olsa belə abidələrimizi ziyarət edə bilmirlər.

Yeri düşmüşkən qeyd edim ki, bizdə dövlət qeydiyyatına götürülmüş 92 (o cümlədən 51 ölkə, 41 yerli əhəmiyyətli) abidə var. Onlardan Qızqalası, Alar və Dəvə karvanı daha məşhurdur.



Yolların keçilməz olması abidələrimizin təbliğinə maneçilik törədir. Vəziyyətdən çıxış üçün müxtəlif tədbirlər müəyyənləşdiririk. Hazırda 4 turizm marşurutu müəyyənləşdirmişik.

Yardımlıda olarkən burada istedadların aşkara çıxarılması, onların gələcək inkişafı qayğısına qalınması təşəbbüsləri də bizi razı saldı. Respublika və rayon səviyyəli festival və müsabiqələrə fəal qoşulan yeniyetmələrin müəyyən qismi fəxri fərman və diplomlara layiq görülüb.

Musiqi məktəbində keçirilən müsabiqə də bu baxımdan maraq doğurur. Burada ayrı-ayrı alətlər üzrə "Ən yaxşı ifaçı"lar

müəyyənləşdirilmiş və onlar diplomlarla mükafatlandırılmışlar.

Rayon həmçinin Cəlilabadda tətbiqi incəsənətlə bağlı sərgiyə də qoşulmuşdur. Muğam müsabiqəsi qaliblərinin Yardımlıda təşkil edilən möhtəşəm konserti razılıqla qarşılanmışdır.

Bir neçə söz də həmsöhbətimiz haqqında. Əliyev Ayaz Ağaxan oğlu 1958-ci ildə Yardımlı rayonunun Hamarkənd kəndində anadan olmuşdur. 1965-1975-ci illərdə həmin kənddə orta təhsil almışdır. 1980-ci ildə Azərbaycan Dövlət Universtetini, 1991-ci ildə Saratov Sosial Siyasət İnstitutunu Fərqlənmə Diplomu ilə bitirmişdir.

**1982-1989-cu illərdə Yardımlı rayonunda komsomol və partiya işində məsul vəzifələrdə işləmişdir. 1991-2005-ci illərdə Yardımlı Rayon İcra Hakimiyyətində Ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 2006-cı ilin yanvar ayından Yardımlı Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiridir...**

**● Tural**

